# İcra edilən layihələr bizim həm niyyətimizi, həm də potensialımızı göstərir



***Müharibədən əvvəlki dövrü xatırladığımız zaman görürük ki, ölkəmizdə heç kimin ağlına gəlməzdi ki, 2020-ci il bizim üçün zəfər ili olacaq. Bu gözlənilməzliyin arxa planında isə münaqişə şəraitində yaşayan bir dövlət kimi Azərbaycanın potensial müharibəyə, eləcə də baş verə biləcək hər cür vəziyyətə hazırlığı gedirdi. Biz xalq olaraq Ali Baş Komandanın ordu quruculuğu sahəsində həyata keçirdiyi islahatlarla tanış olarkən, bəlkə də bir çoxumuz məsələnin mahiyyətini başa düşmür, respublikamızın bu sahədə nə qədər böyük yol qət etdiyini görmürdük.***

Ötən ilin 27 sentyabrından başlanan II Qarabağ müharibəsi həm xalqımıza, həm də dünyaya göstərdi ki, Azərbaycan keçən illər ərzində bu sahədə necə inkişaf edib və silahlı qüvvələrimiz dünyanın ən güclü ordularından birinə çevrilib. Ordumuz otuz ilə yaxın davam edən ədalətsizliyə son qoydu, torpaqlarımız işğaldan azad edildi. Müharibənin ardından azad edilən torpaqlarda genişmiqyaslı bərpa-quruculuq işləri görülməyə başlandı. **Bu fikirləri bizimlə söhbətində Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru, fəlsəfə elmləri doktoru Əlisa Əhmədov bildirdi.**

Əlisa müəllim dedi: Nəzərə alsaq ki, işğaldan azad edilən ərazilərimiz başdan-başa minalanmışdı, o zaman görülən işlərdən danışarkən yalnız yenidənqurma-bərpa, ümumilikdə, tikinti-quruculuq işlərindən bəhs etmək məsələnin mahiyyətini çatdırmaq üçün kifayət etməz. Belə ki, prosesin qarşısında dayanan ən böyük əngəl də məhz minalar idi. Əlbəttə, minalar təmizlənməmiş hər hansısa bir iş görmək mümkün deyil.

Bildiyimiz kimi Prezident İlham Əliyev tez-tez işğaldan azad edilən ərazilərə səfər edir, burada yaradılan şəraitlə şəxsən tanış olur, yeni layihələrin icrası ilə bağlı lazımi göstərişlərini verir. Təbii ki, ölkə başçısının görülən işlərlə bu qədər yaxından maraqlanması bərpa prosesinin daha sürətli və keyfiyyətli davam etməsinə vəsilə olur. İndiyədək görülən işlərin miqyası isə insanda heyrət doğurur.

Təsəvvür edin, təxminən bir il əvvəl daşının üstündə daş olmayan, təkcə torpağın üstü yox, altı da talan edilən



ərazilərdə yaşayış məntəqələri, hava limanları, elektrik stansiyaları tikilir, yollar salınır, xülasə, insanların yaşaması üçün hər cür şərait yaradılır. Bundan əlavə, məktəb binaları, tibb məntəqələri, mədəniyyət ocaqları layihələndirilir, zərər görən və tamamilə dağıdılan heykəllər, məqbərələr yenidən ucaldılır. Təbii ki, ərazilərin minadan təmizlənmə prosesi də işlərin ləngiməsinə gətirib çıxarır. Ölkə başçımızın da dediyi kimi, Azərbaycanın bərpa-quruculuq işlərində ən böyük rəqibi zamandır.

Yeri gəlmişkən, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva oktyabrın 17-də Füzuli rayonuna səfər ediblər. Səfər zamanı dövlətimizin başçısı Füzuli–Ağdam yolunun, "Azərişıq" ASC-nin Füzuli şəhərində Rəqəmsal Yarımstansiya İdarəetmə Mərkəzinin, eləcə də erməni işğalçıları tərəfindən dağıdılmış Füzuli rayonunun Dövlətyarlı kəndində yeni "ağıllı kənd"in təməlini qoyub.

Prezident İlham Əliyev Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə də tanış olub. Bildirib ki, Füzuli rayonunda görülən işlər, icra edilən layihələr ölkəmizin həm niyyətini, həm də potensialını göstərir. Burada cəmi 8 ay ərzində beynəlxalq hava limanı tikilib ki, dünya praktikasında bu qədər kiçik zaman kəsiyində, həm də minalanmış ərazidə beynəlxalq hava limanı tikilməyib. Ölkə başçısının qeyd etdiyi kimi, görülən işlərin miqyası Azərbaycanın Qarabağın bərpası məsələsində nə qədər istəkli olduğunu göstərir.

***Söhbəti qələmə aldı:***
***İmran ƏLİYEV, "Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 19 oktyabr.- S.10.